***ALİ TƏHSİLİN PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ***
***PROBLEMS OF HIGHER EDUCATION***

*UOT 378*

***Kamal Sərvər oğlu Kamalov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının*
*Humanitar elmlər kafedrasının baş müəllimi*
*https://orcid.org/0009-0003-9376-1502*
https://doi.org/10.69682/azrt.2024.91(1).60-65

## ADPU-nun QUBA FİLİALI: İNKİŞAFIN, DİQQƏT VƏ QAYĞININ BİRLƏŞDİYİ YER

***Камал Сарвар оглы Камалов***
*старший преподаватель кафедры Гуманитарных наук*
*Губинского филиала Азербайджанского Государственного Педагогического Университета*

## ГУБИНСКИЙ ФИЛИАЛ АГПУ: МЕСТО СОЧЕТАНИЯ РАЗВИТИЯ, ВНИМАНИЯ И ЗАБОТЫ

***Kamal Sarvar Kamalov***
*head teacher of Humanities departament at*
*Guba branch of Azerbaijan State Pedagogical University*

## QUBA BRANCH OF ADPU: THE COMBINED PLACE OF DEVELOPMENT, ATTENTION AND CARE

**Xülasə.** Respublikamızın təhsil sistemində aparılan islahatlar, bu sahədə beynəlxalq təcrübədən yararlanması öz bəhrəsinin verməkdədir. Bu istiqamətdə qazanılan uğurlarda regionlarda fəaliyyət göstərən ali təhsil müəssisələrinin də böyük rolu vardır. Məqalədə də belə təhsil ocaqlarından biri – ADPU-nun Quba filialının zəngin təcrübəsindən söhbət açılır, burada tədris prosesinin təşkilindən başlayaraq beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirilən hərtərəfli fəaliyyətin əsas istiqamətlərinə aydınlıq gətirilir.
***Açar sözlər:*** *təhsil sistemi, islahatlar, tədris prosesi, kadr hazırlığı, regionlarda təhsil, müəllim, ali məktəb, inkişaf, tələbə*

**Резюме.** Реформы, проводимые в системе образования нашей республики, и использование международного опыта в этой сфере приносят свои плоды. Большая роль в успехах, достигнутых в этом направлении, принадлежит высшим учебным заведениям, действующим в регионах. В статье также говорится о богатом опыте одного такого учебного заведения – Губинского филиала АГПУ, где уточняются основные направления комплексной деятельности в сфере международного сотрудничества, начиная с организации образовательного проекта.
***Ключевые слова:*** *система образования, реформы, учебный процесс, подготовка кадров, образование в регионах, учитель, высшая школа, развитие, студент*

**Summary.** The reforms carried out in the education system of our republic and the use of international experience in this field are bearing fruit. The higher education institutions operating in the regions have a great role in the successes achieved in this direction. The article also talks about the rich experience of one such educational institution – the Guba branch of ADPU, where the main directions of comprehensive activities in the field of international cooperation, starting with the organization of the educational project, are clarified.
***Key words:*** *education system, reforms, teaching process, personnel training, education in regions, teacher, university, development, student*

Tarixdə elə bir dövlətə rast gəlmək mümkün deyil ki, ictimai inkişaf səviyyəsindən asılı olmayaraq, orada təhsil önəmli rol oynamasın. Təsadüfi deyil ki, təhsil və səhiyyə hər bir ölkənin təməlini təşkil edən əsas faktorlar hesab olunur. Əgər nəzərə alsaq ki, səhiyyənin də inkişafı məhz yüksək ixtisaslı və savadlı mütəxəssislərin peşəkarlığından daha çox asılıdır, onda təhsilin bütün dönəmlərdə müstəsna əhəmiyyət kəsb etdiyini qəbul etməliyik.

Həmişə olduğu kimi, son illərdə də təhsil sisteminin müzakirə obyekti baxımından diqqət mərkəzində olması heç də təsadüfi deyil. Məhz ötən əsrin sonlarından başlayaraq, müstəqil Azərbaycanın təhsil sistemində baş verən yeniliklər, həyata keçirilən islahatlar bunu deməyə əsas verir. Sevindirici haldır ki, Azərbaycan təhsilinin inkişaf edərək dünyanın qabaqcıl dövlətlərinin bu sahədə müsbət təcrübəsindən yararlanmaqla, həmin ölkələrlə əməkdaşlıq və rəqabət aparmaq istəyi hədəflərin daha böyük olmasından xəbər verir.

Hazırda Azərbaycan təhsili inkişaf edir və bu tərəqqini demək olar ki, hər addımda duyur, hiss edir və şahidi oluruq. Amma "özünütənqid olmayan yerdə inkişaf da yoxdur", – deyiblər. Etiraf etməliyik ki, təhsildə inkişafı təsdiqləyən faktlarla yanaşı, problemlər, hətta çatışmazlıqlar da vardır. İstəsək-istəməsək də, bu əyər-əskikləri nə ört-basdır etmək mümkündür, nə də onları pərdələmək və ya hansı yollasa haqq qazandırmaq. Elə bu özü də bizə imkan verir ki, problemləri görə-görə ona qarşı gedək, ümumi işə əngəl olan səbəblərin həlli yollarını müəyyənləşdirərək aradan qaldırılmasına nail olaq.

Təhsilin bir neçə pillədən ibarət olduğunu xatırlasaq, hər birinə uyğun səciyyəvi problemlərlə rastlaşa bilərik. Bu gün təhsilimizin inkişafını təmin etmək və nöqsanların olmamasını istəyiriksə, ona elə ilk pillədən – məktəbəqədər təhsil müəssisələrindən başlamaq lazımdır. Amma nədənsə, çox vaxt ölkəmizdə mütəxəssis hazırlığında keyfiyyətin olmamasında və kadrların qeyri-peşəkarlığında daha çox ali təhsil müəssisələri qınaq obyektinə çevrilir. Bu da təbiidir. Ölkəmizin müstəsna rol oynayan mütəxəssislər məhz bu ali məktəblərdə yetişir, ərsəyə gəlir, hazırlanır. Orta ixtisas məktəblərində hazırlanan kadrların daha çox yardımçı rol oynadığını nəzərə alsaq, dediklərimiz təsdiqini tapmış olar. Bəs, ali məktəblərdə mütəxəssis hazırlığının təmin olunması üçün kifayət qədər zəruri şərait varmı?

Tədrisin təşkilindən tutmuş tələbələrin istehsalat təcrübəsinədək görülən işlər təhsil standartlarına nə qədər uyğundur? Beynəlxalq təcrübədən yaralana bilirikmi və nə dərəcədə? Fəaliyyəti ilə təkcə Azərbaycanda deyil, hətta xarici ölkələrin ali məktəblərinə örnək ola biləcək təhsil müəssisələrimizin qabaqcıl iş təcrübəsini yaya bilirikmi?

Bu gün regionlarda ali təhsilin inkişafından danışarkən, ilk növbədə göz önünə bir neçə universitet və filiallar gəlir. Mənə elə gəlir ki, müasir təhsilimizin inkişafında əsas istiqamətlərdən biri, bəlkə də ən başlıcası məhz respublikamızın regionlarında ali təhsilə daha çox və xüsusi diqqət yetirilməsi ilə əlaqədar olmalıdır. Hətta bununla bağlı xüsusi Dövlət Proqramının qəbul edilməsi və bu proqramın bölgələrdən asılı olaraq, xarakterik xüsusiyyətlərə cavab verməsi son dərəcə vacibdir. Əslində, regionlarda təhsilin inkişafına qayğı və diqqətin artırılması bir növ təhsil mərkəzi rolunu oynayan Bakının da ağırlıq yükünü bir qədər azaltmış olardı. Artıq bir neçə ildir ki, müxtəlif səbəblərdən, xüsusən də paytaxtın tələbə baxımından həddən artıq yüklənməsi bir sıra ali təhsil müəssisələrinin Bakıdan kənara köçürülməsini aktual məsələ kimi ciddi müzakirə obyektinə çevirmişdir. Nəzərə alsaq ki, bu ildən tələbə qəbulunda plan yerlərinin daha da artırılması nəzərdə tutulub, onda hansı vəziyyətin yarana biləcəyini təsəvvür etmək heç də çətin deyil. Bu baxımdan, regionlarda ali təhsilin təşkili və inkişafına yenidən baxılması paytaxtdakı mövcud problemlərin həllinə kömək etmiş olardı. Bu zaman bölgələrdə fəaliyyət göstərən ali təhsil ocaqlarının qabaqcıl iş təcrübəsindən faydalanmaq olar. Belə ali təhsil müəssisələrindən biri də haqqında qısa və yığcam da olsa söhbət açacağım – əslində müsbət iş təcrübəsi ilə tanındığından onun geniş təqdimatına o qədər də ehtiyac yoxdur. Bu, ADPU-nun Quba filialıdır.



“Teatr asılqandan başlayır”, – deyirlər. Təhsil ocağı isə mən deyərdim ki, onun girişindən – qapısından başlayır. Haqqında söhbət açdığım bu ali təhsil müəssisəsinin girişindən başlayan nizam-intizam onun digər struktur bölmələrinin fəaliyyətində, auditoriyalarda tədris prosesində, digər tədbirlərdə də açıq-aşkar hiss olunmaqdadır. Konkret olaraq, filialın fəaliyyətinin qısa da olsa təhlili üçün zəruri olan bir sıra əsas məqamlara diqqət yetirsək, dediklərimizin əyani şahidi ola bilərik.

Tədris prosesi öz işini peşəkarcasına bilən, ixtisasına böyük hörmətlə yanaşan, sənətinə ürəkdən bağlanan, nəhayət, tələbələrini öz övladları kimi qəbul edən müəllimlərə, təcrübəli pedaqoqlara həvalə edilmişdir. Burada bir məqama toxunmaq istərdim ki, bu da müəllimlərin filiala işə qəbulu zamanı bir sıra vacib amillərin nəzərə alınmasıdır. Bu isə filial rəhbərliyinin, ümumiyyətlə, kadr seçiminə xüsusi diqqət və həssaslıqla yanaşması ilə bağlıdır. Fikrimi əsaslandırmaq üçün bir faktı nəzərinizə çatdırmaq istərdim. “Sosial iş” ixtisası üzrə çalışan müəllimlərin bir qismi uzun illər bu sahə üzrə dərs demiş təcrübəli müəllimlərdirsə, digər bir qismi praktik olaraq müvafiq profil üzrə hal-hazırda da regionda fəaliyyət göstərən pedaqoq-mütəxəssislərdən ibarətdir. Bu da tələbələrin tədris prosesində əldə etdikləri nəzəri biliklərin elə dərsdə praktika ilə əlaqələndirilməsinə gözəl şərait yaradır. Bundan əlavə, dərslərin aparılmasında təhsilin inkişafı üçün zəruri sayılan metodlardan istifadə olunmasına, qeyd etdiyimiz kimi, nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsinə, bu zaman müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir.

Auditoriyaların böyük əksəriyyətinin Veb-kameralarla təchiz edilməsi dərslərin ciddi nəzarətdə olduğunu bir daha təsdiqləyir. Kifayət qədər maddi-texniki imkanlara cavab verən fənn və ixtisas kabinetləri, kompüterlərlə təchiz olunmuş təyinatlı otaqlar tələbələrin müasir texniki vasitələrdən hərtərəfli istifadəsinə geniş imkanlar yaradır. Zəruri dərslik, dərs vəsaiti və ədəbiyyatlarla təchiz edilmiş geniş kitabxana sistemi də filialda mütəxəssis hazırlığına təminat verən əsas amillərdəndir. Yeri gəlmişkən, bir məsələni də qeyd edim ki, kitabxana fondunun müntəzəm olaraq zəruri ədəbiyyatlarla zənginləşdirilməsi daim diqqət mərkəzindədir.

Filialda kadr hazırlığının başlıca istiqaməti pedaqojiyönlü – Azərbaycan dili və ədəbiyyat müəllimliyi, tarix və coğrafiya müəllimliyi, tarix müəllimliyi, coğrafiya müəllimliyi, ibtidai sinif müəllimliyi, riyaziyyat müəllimliyi, riyaziyyat və informatika müəllimliyi, məktəbəqədər təhsil olsa da, artıq bir neçə ildir ki, burada eyni zamanda sosial iş, xarici dil müəllimliyi, təhsildə sosial-psixoloji xidmət istiqamətlərində də mütəxəssis hazırlığı həyata keçirilir. İlk növbədə regionda bu sahələr üzrə mütəxəssis ehtiyacını ödəyəcək kadr hazırlığının aparılması filiala və onun fəaliyyətinə, bu isə birbaşa olaraq idarəetmə funksiyasını həyata keçirən rəhbərliyə

olan etimaddan irəli gəlir. Bu etimadı isə son beş ildə filiala başçılıq edən gənc alim, istedadlı rəhbər və ən başlıcası, yüksək təşkilatçılıq və idarəetmə qabiliyyətinə malik olan fizika elmləri doktoru, dosent Yusif Alıyev başda olmaqla, bacarıqlı və zəhmətkeş kollektiv qazanmışdır.

Tədris prosesində qazanılan bilik və vərdişlər imtahan prosesində öz nəticəsini verir. Filialda bu prosesə xüsusi diqqət yetirilir. İmtahanların səmərəli keçirilməsini təmin etmək və yarana biləcək hər hansı bir mübahisə doğuracaq halın vaxtında araşdırılması üçün təşkil edilən imtahan qərargahı və apellyasiya komissiyasının fəaliyyəti də yalnız bir məqsədə – obyektivlik və şəffaflığın qorunmasına xidmət edir. Müraciət edən heç bir tələbənin istəyinə formal, laqeyd yanaşılmır. Nəticənin əsaslandırılması və tələbənin imtahan prosesində buraxdığı səhvin aydınlaşdırılması onun növbəti mərhələlərdə bir daha belə xətalara yol verməməsinə şərait yaratmaqla, eyni zamanda, apellyasiya komissiyasının obyektivliyinə inamı artırır. Tələbələrə bu cür humanist yanaşma prinsipinin gözlənilməsi təkcə imtahan prosesi dövründə deyil, bütün tədris ili ərzində özünü açıq-aşkar büruzə verir. Burada heç bir tələbənin müraciəti, arzu və istəyi diqqətdən kənarda qalmır. Filialda iki tədris korpusu fəaliyyət göstərir və hər iki tədris korpusunda tələbələr üçün nəzərdə tutulan şikayət və təkliflər qutusu onların müraciətlərinin filial rəhbərliyinə daha əlçatan olmasına imkan verir. Ümumiyyətlə, filialda tələbələrə, onların müraciətlərinə yanaşma tərzi nümunəvidir. Bunu təxminən 30 ilə yaxın bir müddət ərzində ali məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olmaqla bərabər, daim onlarla bu və ya digər formada ünsiyyətdə olan şəxs – müəllim kimi tam yəqinliklə söyləyirəm.



Tələbələrin dərsdənkənar müddətdə asudə vaxtlarının səmərəli təşkili, istedad və bacarıqlarının üzə çıxarılması da diqqət mərkəzindədir. Filialda demək olar ki, hər gün təşkil olunan və bir-birinə bənzəməyən maraqlı, rəngarəng tədbirlərin sayı bitib-tükənmək bilmir. Bura Tələbə Elmi Cəmiyyəti və Tələbə Gənclər Təşkilatlarının, müxtəlif klub və dərnəklərin təşkilatçılığı ilə keçirilən tədbirləri, müxtəlif konfrans və seminarları, görüşləri və s. da əlavə etsək, əsl qaynar bir həyatla rastlaşmış olarıq. Onu da qeyd edim ki, burada tədbirlərin sayının çoxluğu de-

yil, məhsuldar və keyfiyyətliliyi önəm daşıyır. Elmi-kütləvi tədbirlərlə yanaşı, mədəniyyət və incəsənət sahəsində tanınmış ustadlarla keçirilən görüşlər də diqqəti cəlb edir. Təsadüfi deyil ki, artıq bölgənin bir çox tanınmış simaları, söz-sənət sahibləri haqlı olaraq buranı özlərinin ikinci evi hesab edirlər. Filialın saytına və sosial şəbəkələrə diqqət yetirmək kifayətdir ki, bir daha bunun əyani şahidi olasan.

ADPU-nun Quba filialı müxtəlif səpkili tədbirlərə xüsusi fikir verir. Buradakı tədbirlər filialın fəaliyyət planına uyğun şəkildə müvafiq ixtisas sahələrinin tələbələrinin iştirakı ilə həyata keçirilir ki, bu da tədris prosesinə dəstək olur. Elə son bir neçə ilin statistikasına diqqət yetirsək, filial statuslu bu təhsil müəssisəsində keçirilən tədbirlərin miqyası baxımından nə qədər öndə olduğunu görə bilərik. Təkcə son iki ildə filialda bir-birindən fərqli və maraqlı, diqqəti cəlb edən, aktual mövzulara həsr olunan bir neçə beynəlxalq konfransın keçirildiyini nümunə gətirməklə dediklərimizin əyaniliyini sübut etmək olar. Həm də beynəlxalq əhəmiyyətli bu tədbirlər filial əməkdaşlarının, pedaqoqların respublika və xarici ölkələrin ali məktəbləri, elm mərkəzləri ilə gələcək əməkdaşlığında da yeni səhifə açmış olur. Təsadüfi deyil ki, bu gün xarici mətbuat orqanlarının elmi nəşrlərində filial əməkdaşlarının imzasına daha tez-tez rast gəlmək olur. Burada bir haşiyə çıxmaq istərdim: "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi son 4 ildə "Web of Science" beynəlxalq elmmetrik bazasında ən çox elmi əsəri dərc olunan ali təhsil müəssisələrinin reytinqini açıqlayıb. İlk beşlikdə BDU, ADNSU, UNEC və AzTU ilə yanaşı, Azərbaycan Dövlət Pedaqoji Universiteti də var. Bununla da ADPU "Tədqiqat universiteti" adını almaq uğrunda mübarizədə nə qədər iddialı universitet olduğunu bir daha ortaya qoymuş oldu. Və böyük qürur hissi ilə qeyd etmək istərdim ki, ADPU üzrə son 4 ildə "Web of Science" bazasında çap olunan 168 elmi məqaləsinin 25-i məhz Quba filialının əməkdaşlarına məxsusdur. Məncə, burada əlavə şərhə ehtiyac yoxdur (!)".

Dünyanın nüfuzlu ali təhsil ocaqlarının aparıcı alimləri ilə qurulmuş beynəlxalq əməkdaşlıqlar universitetlərarası beynəlxalq əməkdaşlıqların yaranmasına səbəb olur. Beynəlxalq əməkdaşlıqda müsbət ənənələr yaratmaq və bunu uğurla davam etdirmək öz statusuna hörmət edən hər bir təhsil müəssisəsinin fəaliyyətində başlıca istiqamətlərdən biri olmalıdır. Odur ki, artıq Quba filialının Türkiyənin, Özbəkistanın, Rusiyanın, Moldovanın bəzi universitetləri ilə bir sıra fəaliyyət istiqamətləri üzrə əməkdaşlıqları vardır.

Bir xüsusi məsələni qeyd edim ki, hazırda ADPU-nun Quba filialında 20 nəfər tədqiqatçı alimin birləşdiyi Gənc Alimlər və Tədqiqatçılar Şurası fəaliyyət göstərir. Son illər filialın 3 nəfər əməkdaşı fəlsəfə doktorluğu, 2 nəfər elmlər doktorluğu proqramı üzrə dissertasiya işi müdafiə etmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 3 nəfərə fəlsəfə doktoru, 1 nəfərə elmlər doktoru elmi dərəcələri, 1 nəfərə dosent, 1 nəfərə isə professor elmi adları verilmişdir. Ümumiyyətlə, yerli kadrların tədris apardıqları ixtisaslar üzrə elmi-tədqiqat işləri aparmaları stimullaşdırılmış, gənclərin elmə marağının daha da artırılması üçün xaricdə çap olunan hər bir elmi məqaləyə görə əlavə ödənişlərin olunduğunu təqdirəlayiq hal kimi söyləmək yerinə düşər.

Bu təhsil ocağının gələcəkdə müstəqil universitetə çevrilməsi, şəbəkəsinin daha da genişlənməsi, yeni ixtisasların verilməsi isə regionda kadr potensialının möhkəmlənməsinə, bölgənin tərəqqisinə gətirib çıxarar. Bu da dövlətimizin siyasətində əsas istiqamətlərdən biri kimi regionların sosial-iqtisadi inkişafı sahəsində irəli atılmış ən doğru və mühüm addım ola bilər. Həmçinin nəzərə alsaq ki, Quba şəhəri məsafə baxımından da Bakıya çox yaxındır, onda bu, paytaxtdan buradakı universitetə üz tutan və elmin sirlərini gənclərə öyrədən təcrübəli pedaqoqların sayı da artar. Nəzərə alsaq ki, bu gün ölkəmizin cənubunda Lənkəran Dövlət Universiteti, qərbində Mingəçevir Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və s. fəaliyyət göstərir, onda şimal bölgəsində də belə bir universitetin qurulmasına ehtiyac vardır.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında "Təhsilin inkişafı üzrə" Dövlət Strategiyasında regionlarda ali təhsilin əlçatanlığının təmin edilməsi xüsusi bənd kimi qeyd edilmişdir.



...Filialın fəaliyyəti haqda kifayət qədər yazmaq mümkündür. Bir vacib məqamı da qeyd etməyi özümə borc bilirəm. Bu, filialda çalışan və ümumi işdə hər bir zəhməti olan əməkdaşın – təkcə bölmə rəhbərlərinin, kafedra müdirlərinin, digər struktur başçılarının deyil, hətta sadə görünsə də belə, vacib funksiyaları yerinə yetirən xadimə, fəhlə, komendant və s. şəxslərin də əməyinin yetərincə, həm də məqamında qiymətləndirilməsidir. Televiziyada deyildiyi kimi, bəzən kadrarxası sayılan bu insanlar filialda heç zaman unudulmur. Bu yaxınlarda filialın Elmi Şurasının genişləndirilmiş iclasında həmin şəxslərin əməyinin dəyərləndirilərək mükafatlandırılması da bir növ halallıq göstəricisidir. Halallıq olan yerdə isə belə bir kollektivlə, özü də Yusif Alıyev kimi zəngin idarəetmə qabiliyyətinə malik olan təcrübəli rəhbərlə daha yüksək zirvələri aşmaq, amallara çatmaq mümkündür. 1000-dən artıq tələbənin təhsil aldığı, sıralarında 150-ə yaxın pedaqoji-köməkci heyət üzvünün birləşdiyi, məqsəd və məramı isə bilavasitə Azərbaycan təhsilinin, Azərbaycan dövlətinin və Azərbaycan dövlətçiliyinin inkişafına xidmət etməkdən ibarət olan ADPU-nun Quba filialında olduğu kimi...

**Problemin aktuallığı.** Paytaxt Bakı şəhəri ilə yanaşı, regionlarda da ali təhsil müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, əldə olunan müsbət nəticələrdən məlumatlanmaq baxımından məqalə aktual əhəmiyyət kəsb edir.

**Problemin yeniliyi.** ADPU-nun Quba filialının fəaliyyətində qazanılan uğurlar və zəngin təcrübə ilə tanışlıq digər ali təhsil müəssisələri üçün də yenilik ola bilər.

**Problemin praktik əhəmiyyəti.** Məqalə filialın iş təcrübəsindən bəhrələnmək baxımından ali təhsil müəssisələrinin rəhbər işçiləri, metodistlər və müəllimlər üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir / H.Ə. Əliyev. – Bakı: Təhsil, – 2002.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. – Bakı, – 2009.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. – Bakı, – 2013.
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı. – Bakı, – 2015.

**E-mail:** kamalsarvar@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **A.N. Abbasov**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 23.01.2024